# Fransa Azərbaycana uduzur

Müasir dünyada beynəlxalq münasibətlərin aktoru olan hər bir dövlət sosial, iqtisadi və hərbi qüdrətindən asılı olmayaraq, qlobal səviyyədə baş verən proseslərə rasional reaksiya verməlidir. Təəssüf doğuran faktdır ki, çoxillik Ermənistan-Azərbaycan münaqişəsi dövründə tərəflər arasanda "vasitəçilik "etmiş Fransa İkinci Qarabağ savaşı zamanı və ondan sonrakı dövrlərdə ölkəmizə qarşı açıq və qərəzli mövqeyi ilə daha çox diqqəti cəlb edir.



Rəsmi Paris beynəlxalq hüquqa məhəl qoymadan nümayişkaranə surətdə Ermənistanı dəstəkləyir, öz maraqlarını həyata keçirmək məqsədilə Ermənistan-Azərbaycan münasibətlərində normallaşmanın qarşısını almaq mövqeyi tutub. İkinci Qarabağ savaşının bitməsindən dörd ilə yaxın müddət keçsə də, tərəflər arasında hələ ki, sülh müqaviləsi imzalanmayıb. Birmənalı olaraq deyə bilərik ki, sülh müqaviləsinin imzalanmamasının başlıca günahkarı elə Fransadır. Ermənistanın İkinci Qarabağ savaşındakı ağır məğlubiyyəti Fransanın Cənubi Qafqaz siyasətindəki mövqeyinə ağır zərbə vurdu. Ermənistan vasitəsilə regionda "söz sahibi" olmaq istəyən rəsmi Parisin ardıcıl şəkildə buraxdığı səhvləri və qərəzli niyyəti bu dövlətin riyakar siyasətinin təcəssümüdür. Fransanın ikiüzlü siyasəti onun beynəlxalq təşkilatlardakı nüfuzuna da zərbə vurdu. Qətiyyətlə qeyd edə bilərik ki, rəsmi Parisin son illərdə beynəlxalq münasibətlər sistemində nüfuzu ciddi şəkildə zədələnib. Azərbaycan-Fransa münasibətlərində gərginliyin yaranmasının əsas səbəbkarı və günahkarı isə Makrondur. Faktiki olaraq Makron Fransa diplomatiyasını iflic vəziyyətə salıb. Cənubi Qafqazda mövqeyini itirən rəsmi Parisin beynəlxalq təşkilatlar vasitəsilə etdiyi hücumlar hər dəfə boşa çıxdıqca daha da gülünc vəziyyətə düşdüyünə şahid oluruq. BMT-nın Təhlükəsizlik Şurasındakı mövqeyindən istifadə edib məqsədini reallaşdıra bilməyən Makron Fransanın müxtəlif əyalət və şəhərlərində Qarabağın "statusu"nu tanımaqla ölkəmizə qarşı təzyiq edib istədiklərinə nail ola biləcəklərini düşünürdülər. Lakin onların siyasətləri kimi niyyətləri də puç oldu.

Qarabağda müharibə bitdi. Ermənistan Qarabağı Azərbaycan ərazisi kimi tanıdı. Amma Fransanın riyakarlığı və qərəzi bitmədi. Makron generallarının əlinə "binokl" verib sərhədlərimizə qədər göndərdi. Bununla da bir nəticə əldə edə bilməyəcəklərini anlayıb indi də Ermənistanı silahlandırır. Bu azmış kimi fransızlar hətta başqa dövlətləri və yedəklərində olan beynəlxalq təşkilatları da çirkin oyunlarının aləti etməyə çalışırlar. Ölkəmiz ədalətli mövqeyi, tədbirli davranışı, dürüst siyasəti ilə Yelisey sarayının planlarını alt-üst edə bilir.

Cəmi bir neçə gün əvvəl Avropa İttifaqı Şurası Avropa Sülh Fondu Ermənistana "müdafiə" qabiliyyətinin artırılması üçün 10 milyon avro yardım göstərilməsi barədə qərar vermişdi. Macarıstan bu "yardıma" veto qoymaqla Fransanın bu arzusunu da puç etdi.

Fransanın ölkəmizə qarşı başlatdığı bütün hücumlar uğurla dəf edilməkdədir. Belə desək, rəsmi Paris böyük hesabla Azərbaycana uduzur. Bunu artıq Fransa rəsmiləri özləri də etiraf etməkdədirlər. May ayında Yeni Kaledoniyada baş verən iğtişaşlarda Fransanın daxili işlər naziri Jerald Darmenin "France 2" telekanalına müsahibəsində Azərbaycanı iğtişaşlara "müdaxilə etməkdə" ittiham etməsi bu ölkənin acizliyinin etrafı idi.

Bu gün Fransanın müstəmləkəsi olan Korsika adasında, Yeni Kaledoniyada azadlıq mübarizəsinin yeni mərhələsi başlayıb. Məsələ burasındadır ki, kolonializm, müstəmləkəçilik siyasətindən əl çəkə bilməyən Fransanın bir sıra media orqanları ölkəmiz əleyhinə qeyri-obyektiv reportaj və məqalələr hazırlayaraq beynəlxalq ictimayyəti aldatmağa çalışırlar. Bu günlərdə Fransanın TF1 kanalı "Xarici müdaxilələr: Azərbaycan Fransada sabitliyi necə pozmağa çalışır" adlı reportajda da Bakı Təşəbbüs Qrupu (BTQ) hədəfə alınıb. Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü ildə Azərbaycanda keçirilmiş nazirlər toplantısı çərçivəsində Fransanın kolonializm siyasətindən əziyyət çəkən xalqların nümayəndələri tərəfindən yaradılıb və təşkilatın idarə heyətində məhz Fransa müstəmləkəsindən azad olmağa çalışan xalqların seçdiyi rəsmi şəxslər yer alır. Əsas missiyası kolonializm və neokolonializm siyasətinin fəsadlarını dünya ictimaiyyətinə çatdırmaq, müstəmləkəçilikdən əziyyət çəkən xalqlara apardıqları ədalətli mübarizədə beynəlxalq hüquq çərçivəsində dəstək göstərilməsindən ibarətdir. Fransa rəsmilərindən fərqli olaraq BTQ heç bir ölkənin daxili işlərinə qarışmır və fəaliyyətini beynəlxalq normalar çərçivəsində qurur.

Görünən odur ki, Fransa diplomatiyası ağır böhran içərisindədir. Bu böhrandan çıxmaq üçün isə kənarda günahkarlar axtarışı Fransanın müstəmləkə siyasətindən, insan hüquqları, demokratiya və humanizm prinsiplərinin əzilməsindən keçir. Bu ölkə tərəfindən Azərbaycana qarşı həyata keçirilən qərəzli siyasət ölməkdə olan imperiyanın son hücumuna bənzəyir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 1 avqust (№ 161).- S.8.